**Nigar Roman qızı Hacıyeva**

**UOT:338.012:338.246; JEL:E60;E69;G32.**

# -Azərbaycanda qeyri-neft sektorunun inkişaf problemlərinin nəzəri-metodoloji tədqiqi

***Xülasə***

*Tədqiqatın məqsədi – Azərbaycanda qeyri-neft sektorunun inkişaf problemlərinin nəzəri-metodoloji tədqiqidir. Bu məqsədlə qeyri-neft sektorunun inkişaf problemləri və onların nəzəri-metodoloji xüsusiyyətləri açıqlanmışdır. Qlobal çağrışlar nəzərə alınmaqla qeyri-neft sektorunun perspektivli sahələrinin inkişaf etdirilməsinin vacibliyi əsaslandırılmışdır. Qeyri-neft sektorunun inkişafına imkan verən problemlərin həlli yollarına toxunulmuş və təhlillər aparılmışdır. Qeyri-neft təmayüllü iqtisadiyyat sahələrinin inkişaf prioritetləri və hədəfləri baxılmışdır. Yaxın perspektivdə Azərbaycanda qeyri-neft sektorunun inkişafının yeni mərhələyə qaldırılması üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası – kimi, ilk növbədə bir sıra iqtisadi metodlardan - elmi abstraksiya, analiz, sintez, müqayisəli təhlil və ümumiləşdirmədən istifadə edilmişdir. Eyni zamanda, qeyri-neft sektorunun inkişaf etdirilməsinə mane olan problemlər üzrə müxtəlif alim və tədqiqatçıların nəzəri-metodoloji yanaşmaları da baxılmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti – məqalədə verilmiş nəzəri-metodoloji müddəalardan qeyri-neft sektorunun inkişafı istiqamətində tədbirlərin və fəaliyyət mexanizmlərin hazırlanmasında istifadə edilə bilər. Tədqiqatın nəticələri – hazırkı dövrdə qeyri-neft sektorunun yeni çağrışlara uyğun olaraq inkişaf etdirilməsinə dair fəaliyyət mexanizmlərin hazırlanması və tətbiqi ilə bağlı təkliflərin verilməsidir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – başlıca elmi yenilik kimi iqtisadi transformasiyalar və yeni obyektiv reallıqlar şəraitində qeyri-neft sektorunun inkişafına müasir nəzəri-metodoloji baxışların formalaşdırılmasıdır. Yeni çağrışlardan yanaşmaqla, qeyri-neft sektorunun inkişafının intensivləşdirilməsi və daha səmərəli təşkili üçün təsirli və səmərəli tədbirlərin görülməsinin vacibliyi əsaslandırılmışdır. Qeyri-neft sektorunun inkişafının daha məhsuldar modelləşdirilməsi və mövcud mexanizmlərin təkmilləşdirilməsi üzrə yaxın, orta və uzaq perspektivlər nəzərə alınmaqla fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *qeyri-neft sektoru, qeyri-neft məhsulları, iqtisadi səmərəlilik, yeni iqtisadi çağrışlar, qeyri-neft sektorunun inkişaf problemləri, qeyri-neft sektorunun inkişaf istiqamətləri*

## Giriş

Məlumdur ki, neft və qaz respublikanın strateji sərvətlərindəndir. Məhz zəngin faydalı qazıntı ehtiyatlarının, xüsusən də karbohidrogen yataqlarının olması sayəsində Azərbaycan öz iqtisadiyyatının açıqlığını nümayiş etdirib və bununla da xarici investisiyaları cəlb edib. Lakin uzun müddət sırf neft-qaz sənayesinə arxalanan iqtisadiyyatın yüksəlişinə ümid etmək məqsədəuyğun deyil. Sənayenin belə birtərəfli inkişafı qara və əlvan metallurgiya, maşınqayırma, yüngül və yeyinti sənayesi kimi mühüm sənaye sahələrinin xüsusi çəkisinin azalmasına səbəb olur. Məlumdur ki, Azərbaycan sənaye-aqrar respublikadır. Azərbaycanın şaxələndirilmiş iqtisadiyyatı zəngin və müxtəlif faydalı qazıntılardan istifadəyə əsaslanır. Sənayenin inkişafında neft və qazla yanaşı, dəmir, sink, molibden filizləri, qaya duzu, tərkibində yod və brom olan qazma suları, gips, əhəngdaşı, bitum, gil, mərmər və digər faydalı qazıntıların ehtiyatları, həmçinin hidroenergetika ehtiyatları iştirak edir. Respublikanın kənd təsərrüfatı tərəvəzçilik, meyvəçilik, pambıqçılıq, tütünçülük və subtropik bitkilərin yetişdirilməsi, həmçinin damazlıq, ipəkçilik və qoyunçuluq üzrə ixtisaslaşıb. Müvafiq olaraq,

*©Nigar Roman qızı Hacıyeva Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant. E-mail: hajiyeva2021@inbox.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

ölkə sənayesinin strukturunda kənd təsərrüfatı xammalının ilkin emalı ilə məşğul olan sənaye sahələri xüsusi yer tutur. Azərbaycanda da əhəmiyyətli əmək ehtiyatları var ki, bu da əhalinin nisbətən yüksək təbii artımı ilə bağlıdır. Azərbaycanın xarici ölkələrlə inkişaf edən iqtisadi əlaqələri geniş nəqliyyat şəbəkəsi ilə təmin edilir. Beynəlxalq əmək bölgüsündə Azərbaycan neft hasilatı və emalı, kimya və elektrik sənayesi, neft maşınqayırması, qara və əlvan metallurgiya, tikinti materialları istehsalı, ağac emalı və yeyinti sənayesi regionu kimi seçilir. Bütün bunlar Azərbaycanda qeyri-neft sektorunun inkişaf problemlərinin tədqiqini aktuallaşdırır. Hazırkı mərhələdə əsas vəzifələrdin biri iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsi, neft gəlirlərindən asılı olmayaraq gələcəkdə qeyri-neft sektorunun inkişaf templərinin, rəqabət qabiliyyətinin və ixrac imkanlarının artırılmasıdır. Bu baxımdan "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi" ixracyönümlü iqtisadi modelə əsaslanır və iqtisadiyyatın, o cümlədən, qeyri-neft sektorunun rəqabətqabiliyyətliliyinin artırılması və strukturunun təkmilləşdirilməsinə, qeyri-neft ixracının artmasına töhfə verəcəkdir [1]. Buna görə də çox mühüm prioritet məsələ səmərəli dövlət tənzimlənməsinə, bazar münasibətlərinə əsaslanan və kifayət qədər rəqabət qabiliyyətinə malik iqtisadi modelin formalaşdırılmasıdır. Azərbaycanda aparılan islahatlar, qeyri-neft sektorunun gücləndirilmiş inkişafı siyasəti Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası kimi bir çox mötəbər beynəlxalq təşkilatlar tərəfindən dəfələrlə qeyd olunub. Məsələn, "Doing Business 2020" hesabatında Azərbaycan öz mövqeyi yaxşılaşıb və ölkəmiz yenidən islahatçı ölkələr içərisində ilk onluğa daxil olub. Həmçinin, Azərbaycan inklüzivlik proqramları üzrə Dünya Bankının "İqtisadi inklüzivliyin Vəziyyəti 2021" hesabatında digər ölkələrə nümunə kimi göstərilir. "Fitch Ratings", "Moody's" və "Standard & Poor's" beynəlxalq reytinq agentlikləri də Azərbaycanın iqtisadi perspektivinə nikbin kredit reytinqi verib və bu amil də investorların inamını artırıb. Ölkəmizin iqtisadi sahədə əldə etdiyi müsbət nəticələr Vaşinqtondakı nüfuzlu Heritage Fondunun (İRS fondu) "İqtisadi Azadlıq İndeksi 2021" hesabatında da öz əksini tapıb. Sözügedən fondun hesabatında həm Azərbaycanın mövqeyində, həm də toplanan xallarda ciddi irəliləyişlər var. 172 ölkə arasında keçirilən qiymətləndirməyə əsasən, Azərbaycan 38-ci yerdə qərarlaşıb. Azərbaycan bu indeks üzrə mümkün 100 xaldan 70,1-i toplayıb. Bundan başqa, 12 göstərici üzrə 180 ölkə sırasında 44-cü yeri tutub. Beləliklə, 2020-2021-ci illər üzrə yuxarıda qeyd olunan hesabatlarda ölkəmizin mövqeyinin möhkəmlənməsi həyata keçirilən məqsədyönlü və hərtərəfli iqtisadi islahatların nəticəsidir [2].



**Qeyri-neft sektorunun inkişaf etdirilməsi problemlərinə nəzəri-metodoloji yanaşmalar və onların təhlili**

Müasir dövrdə mühüm problemlərdən biri qeyri-neft sektorunun davamlı inkişafıdır. Davamlı inkişaf konsepsiyası iqtisadi, sosial və ekoloji problemlər kontekstində mövcud problemlərə prinsipcə yeni, daha yaxşı yanaşmanın nəticəsidir. Bu yanaşma milli iqtisadiyyatın davamlı inkişafının müasir modelinin fundamental prinsipi hesab olunur. Davamlı inkişaf problemi bu gün dünya birliyinin qarşısında duran əsas qlobal problemlərdən biri olaraq qalır. Təsadüfi deyil ki, 2015-ci il sentyabrın 25-də BMT-nin 193 üzvü, o cümlədən Azərbaycan üç əsas prinsipə əsaslanan "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi"ni qəbul etmişdir: iqtisadi artım; sosial inkişaf və ətraf mühit (ekoloji təhlükəsizlik). Bu proqram çərçivəsində Azərbaycan 150 indikator üzrə özü üçün 17 hədəf seçib və onların həyata keçirilməsi istiqamətində müvafiq işlər aparılır. Ölkəmizdə 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyinin icrasına milli səviyyədə nəzarət etmək üçün kompleks tədbirlər görülür [3, s.231; 4, s.68]. Əslində, gündəlikdə qeyd edilən prinsiplər Azərbaycan hökumətinin son illərdə qəbul etdiyi Dövlət Proqramlarının, İnkişaf Konsepsiyalarının, Strateji Yol Xəritələrinin əsas istiqamətləridir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Son on ildə ölkədə qəbul edilmiş konseptual sənədlərdə və proqramlarda qeyri-neft sektorunda sahibkarlığın inkişafına dəstək əsas prioritetlərdəndir. Sahibkarlıq sosial-iqtisadi yüksəlişə nail olunması, iqtisadi fəaliyyətin inkişafı, səmərəli məşğulluq problemlərinin həlli, resurslardan səmərəli istifadə, məhsulların həcminin və keyfiyyətinin artırılması, sahə strukturunun təkmilləşdirilməsi, xarici investisiyaların cəlb edilməsi, gəlirlərinin artırılması baxımından bir çox üstünlüklərə malikdir. Əksər ölkələrdə iqtisadi artımın və məşğulluğun təmin edilməsində sahibkarlıq subyektləri aparıcı mövqe tutur. Həmin ölkələrdə sahibkarlığın ÜDM-də və məşğulluqdakı payı son vaxtlar 50 və 60 %-dən yuxarı olmuşdur. Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində lazımi tədbirlər görülür. Respublikada əhali məşğulluğunun, qeyri-neft ixracının həcminin artırılması, biznes mühitinin inkişafı, cəmiyyətdə sahibkarlığa dəstəyin artırılması kimi strateji məsələlərdə sahibkarların rolunun artırılmasının stimullaşdırılması üçün zəruri olan kompleks tədbirlər davam etdirilir. Belə tədbirlərə bunlar daxildir: sahibkarlıqda aparılan yoxlamaların minimuma endirilməsi və mərhələli şəkildə dayandırılması; sahibkarlıq fəaliyyətinə lisenziyaların, icazələrin sayının, rüsumların məbləğinin azaldılması; icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi; bu sahədə elektron portalların fəaliyyətinin genişləndirilməsi istiqamətində işlərin davamlılığının təmin edilməsi; sahibkarların hüquqlarının müdafiəsi üzrə apellyasiya şuralarının yaradılması; ölkəyə investisiyaların stimullaşdırılması məqsədilə yeddi il müddətinə vergi və gömrük güzəştlərinin verilməsi; idxal-ixrac əməliyyatları üçün gömrük prosedurlarının sadələşdirilməsi; elektron gömrük xidmətlərinin daha da təkmilləşdirilməsi və genişləndirilməsi. Ölkədə sahibkarlıq sektorunun inkişafı üçün yaradılmış əlverişli mühit son zamanlar nəticəsini verməkdədir. Belə ki, sahibkarlıq sektorunda yaradılan əlavə dəyər 2020-ci ildə 4867,9 milyon manat olmuşdur ki, bu da ÜDM-in 6,7%-ni təşkil edir. Həmin ildə bu sektora 2674,1 milyon manat investisiya qoyulmuşdur ki, bunun da 36,3%-i mikro, 14,2%-i kiçik, 49,5%-i isə orta sagibkarlıq subyektlərinin payına düşür. 2020-ci ildə yaradılmış əlavə dəyərin artım templəri əksər sahələrdə ötən illərin müvafiq dövrünə nisbətən yüksək olmuşdur. Qeyri-neft sektorunun inkişafında mühüm vəzifə turizmin iqtisadiyyatın ən yüksək gəlirli sahələrindən birinə çevrilməsi, rəqabətqabiliyyətli turizm komplekslərinin yaradılması, habelə bu sənayedə yeni iş yerlərinin yaradılmasıdır.



Azərbaycanda turizm sənayesinin inkişafının: Güclü tərəflərinə aşağıdakılar daxildir: xarici turistlərin xüsusi marağına səbəb olan ölkənin unikal mədəni, tarixi və təbii irsi; müəalicə əhəmiyyətli Naftalan neftinin olması; Xəzər sahilinin 750 km ərazisi; ölkədə siyasi sabitlik və təhlükəsizliyin artırılması; vətəndaşların adambaşına düşən gəlirlərinin artması, milli valyutanın sabitliyi. Zəif tərəflərə bu kimi məsələləri daxil etmək mümkündür: ölkənin əksər regionlarında turizm infrastrukturunun kifayət qədər inkişaf etməməsi; mehmanxanalarda yerləşmə, yemək, nəqliyyat və turistlərə təklif olunan digər xidmətlərin yüksək qiyməti; turizm məhsulunun qiymətlərinin əksər Avropa ölkələrinin eyni adlı məhsullarının qiymətlərinin səviyyəsini əhəmiyyətli dərəcədə üstələməsi; turizm sənayesinin bütün sahələrində xidmətin keyfiyyətinin aşağı olmasını şərtləndirən ixtisaslı kadr çatışmazlığının davam etməsi; ölkənin turizm imkanlarının qeyri-kommersiya xarakterli dövlət reklamının kifayət qədər olmaması. Bundan əlavə, Azərbaycanda turizm sektorunun cəlbediciliyini artırmaq üçün bu qeyd olunanlar kifayət qədər vacib hesab edilir:

- Turizm məhsulunun daxili və turizm sahəsində qeyri-kommersiya təşviqi üçün kifayət qədər dövlət büdcəsi vəsaiti ayırmaqla dünya bazarlarında turizm məhsulunun rəqabət qabiliyyətini artırmaq lazımdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Turizmlə məşğul olan sahibkarların kreditləşdirilməsi və subsidiyalaşdırılması sisteminin təkmilləşdirilməsi.
- İnfrastrukturun modernləşdirilməsi. Turist axınının ən böyük payı avtomobil nəqliyyatının payına düşür. Beynəlxalq turist axını üçün Azərbaycan tranzit rolunu oynaya bilər. Turizm sektorunun inkişafı üçün əsas imkan hər il on minlərlə turisti cəlb edən perspektivli turizm zonası olan Nabranın yaxınlığında dəniz və hava limanının tikintisi ola bilər.
- İstehsal sektorunun inkişaf etdirilməsi. Turizmin respublika iqtisadiyyatına təsirinin müxtəlif aspektləri arasında turistlər üçün malların (milli geyimlər, müxtəlif suvenirlər və s.) istehsalını aid edə bilərik. Məhsul və xidmətlərin istehsalı turizm sənayesinin sifarişləri əsasında qurula bilər.
- Turizm sənayesində firmaların sayı artırılmalıdır. Turizm sektorunda kiçik biznesin inkişafı restoranlar, mehmanxanalar, əyləncə mərkəzləri sisteminin yaradılmasına töhfə verər.
- Aqroturizmin və ekoloji turizmin inkişafının stimullaşdırılması. İqtisadiyyatın bu seqmentinin inkişafında ölkədə təbii, ekzotik landşaftların, təbiət abidələrinin mövcudluğu, eləcə də iqlim müxtəlifliyi böyük əhəmiyyət kəsb edir.

Hazırda Azərbaycanda turizm kifayət qədər yüksələn xətt üzrə inkişaf etmir. Bunu bu sahə məhsulunun həcminin ÜDM-də xüsusi çəkisində görmək olar. Belə ki, turizm məhsulunun dəyərinin ÜDM-də xüsusi çəkisi 2015, 2017 və 2019-cu illərdə 4,5 %, 2016, 2018-ci illərdə 4,3 %, 2020-ci ildə isə 1,9 % təşkil edib.



**Şəkil 1.**

**Turizm üçün xarakterik olan sahələrdə yaradılan əlavə dəyər (milyon manat).**




**Mənbə: Şəkil ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib [5].**

Şəkil 1-dən 2020-ci ilə turizm sektoru üzrə yaraılan əlavə dəyərin əvvəlki illərlə müqayisədə kəskin azaldığını görürük. Bunun əsas səbəbi hamıya məlum olan COVİD-19 pandemiyasının yayılması səbəbindən məhdudiyyətlərin tətbiqidir. Turizmin inkişafı üzrə dövlət proqramlarının icrası Azərbaycanda bu sahənin sürətli inkişafı şəklində öz bəhrəsini verə bilər. Artıq respublikada tikinti kompleksləri, məişət xidməti müəssisələri yaradılmışdır ki, bu da böyüdükcə kifayət qədər turist qəbul etməyə imkan verəcəkdir. Turizmin böyük gəlir gətirən qeyri-neft sektoru kimi inkişafı sosial-iqtisadi inkişaf problemlərini həll edə bilər ki, bu da ümumilikdə turizmin ölkənin iqtisadi inkişafının əsas sütunlarından birinə çevrilməsinə təsir göstərəcək [6, s.360].Qeyri-neft sektorunun inkişafının strateji istiqamətlərindən biri də ölkənin kənd təsərrüfatı sahəsidir. Ölkənin xarici bazarlardan asılılığının aradan qaldırılması, ölkənin ərzaq təhlükəsizliyinin daxili bazar hesabına təmin edilməsi dövlətin aqrar siyasətinin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

prioritetlərindən olan kənd təsərrüfatının əhəmiyyətli dərəcədə modernləşdirilməsini tələb edir. Aqrar sektorun əsas sahəsi məhz kənd təsərrüfatıdır. Azərbaycanda kənd təsərrüfatının inkişaf səviyyəsini mövcud vəziyyətini aşağıdakı şəkildən aydın görə bilərik (şəkil 2.).

**Şəkil 2.**

**Kənd təsərrüfatınnı ümumi məhsulu (min manat)**




**Mənbə: ŞəkilARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.**

Şəkil 2-nin məlumatları tədqiq edilən dövrlər ərzində kənd təsərrüfatı məhsulunun həcminin davamlı olaraq artığını göstərir. 2020-ci ildə bu özünün ən yüksək səviyyəsinə çatmışdır. Bu artım 2010-cu illə müqayisədə 4,3 dəfə, 2015-ci illə müqayisə 2,2 dəfə, 2019-cu illə müqayisədə isə 32,4 % çoxdur. Bütün bunlar, ölkədə qeyri-neft sektorunun davamlı olaraq inkişafının bariz nümunəsidir. Bütövlükdə qeyri-neft sektorlarının davamlı inkişafını daha aydın görmək üçün onun ÜDM-də xüsusi çəkisinin təhlili böyük maraq doğurur.

**Şəkil 3.**

**Neft-qaz və qeyri-neft sektorunda ÜDM (milyon manat)**




**Mənbə: Şəkil ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.**

Şəkil 3-dən göründüyü kimi 2021-ci ildə qeyri-neft sektoru üzrə ÜDM 51082,9 milyon manat olub ki, bu da respublika üzrə ÜDM-in 55%-ni təşkil edir. 2021-ci ildə qeyri-neft sektoru üzrə ÜDM 2015-ci ilə nisbətən 49,6%, 2018-ci ilə nisbətən 22,6%, 2020-ci ilə nisbətən isə 12,7% artmışdır. Qeyri-neft sektorları üzrə ÜDM-ə ən böyük müsbət töhfə verən sənayelər nəqliyyat və anbar təsərrüfatı, tikinti və ticarət, avtomobillərin təmiri sahəsi olub. Azərbaycanda qeyri-neft sektorunun ən böyük sahəsi ağır sənaye və maşınqayırmadır. Bu sənaye sahələrinin inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün konkret məqsədlər nəzərə alınmaqla təcrübədə səmərəli tətbiqini tapmış məhsuldar mexanizmlərin tədqiqi əhəmiyyətlidir. Xüsusilə, neft-qaz sənayesinin strateji məqsədləri çərçivəsində kimya və neft-kimya kompleksinin inkişafı üzrə prioritet vəzifələrin müəyyən edilməsi qeyri-neft sənayesinə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ayrılan diqqətin nəticəsidir [7, s.63]. Ümumiyyətlə, sənaye ölkə iqtisadiyyatının əsas və inkişaf etmiş sahələrindən biridir. İqtisadiyyatın həm neft sektorunu, həm də qeyri-neft sektorlarını (yanacaq-energetika, kimya, maşınqayırma, ərzaq və s.) özündə birləşdirən bu sektor Azərbaycanda ötən əsrin ortalarından inkişaf etməyə başlamışdır. Amma ölkənin mövcud sənaye fəaliyyətini təkmilləşdirmək üçün elmi-tədqiqat və təkmilləşdirmə işləri aparılmalıdır. Bu işlər yeni məhsulun istehsalının keyfiyyətini, üsulunu və texnologiyasını təkmilləşdirməyə yönəlib. Sənayedə tədqiqat və təcrübə-konstruktor işləri üç qrupa bölünür: fundamental tədqiqatlar, tətbiqi tədqiqatlar və eksperimental işlənmələr. Birinci qrup təcrübi və ya nəzəri tədqiqatlarda konkret məqsədlər müəyyən etmədən yeni biliklər əldə etməyə yönəlmiş fundamental inkişaflardır. Tətbiqi tədqiqatlar innovasiyaların istehsalında təcrübi istifadə məqsədi ilə bilik əldə etməyə yönəlmiş tədqiqatlardır. Eksperimental inkişaf elmi-texniki tədqiqatlar və ya praktiki təcrübədən əldə edilən biliklərə əsaslanan fəaliyyətdir və yeni məhsulların, materialların, proseslərin, avadanlıqların, xidmətlərin və sistemlərin yaradılmasına və ya gələcəkdə təkmilləşdirilməsinə yönəldilir. Amma sivilizasiyanın inkişafının indiki mərhələsində cəmiyyəti innovasiyalardan istifadə etmədən təsəvvür etmək mümkün deyil. İstənilən cəmiyyətin iqtisadi, eləcə də sosial inkişafı hər bir ölkənin tərəqqisinin fundamental əsasıdır. Hər bir ölkənin inkişafının və dünya iqtisadiyyatına inteqrasiyasının əsasını onun iqtisadiyyatı təşkil edir. İqtisadiyyata bir neçə sahə daxildir və onların inkişafı əsasən dövlətin innovativ fəaliyyətindən asılıdır.

**Azərbaycanda qeyri-neft sektorunun inkişaf problemlərinin həlli istiqamətləri və perspektivləri**

Son onilliklərdə baş verən sosial-iqtisadi inqilablar cəmiyyətin yeni postsənaye və informasiya inkişafı mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. Qloballaşmanın əsasən iqtisadiyyatın bütün sahələrini əhatə etdiyi bir şəraitdə yeni elm tutumlu innovasiyaların hazırlanması və yaradılmasının əsas məqsədi cəmiyyətdə istehsalın səmərəli fəaliyyətini təmin etmək və onun bütün üzvlərinin tələb və tələbatını ödəmək, eləcə də yeni elm tutumlu innovasiyaların hazırlanması və yaradılmasıdır. İnnovativ texnologiyaların və innovasiya infrastrukturunun inkişafı üçün istehsalat və elm arasında sıx əməkdaşlığın təmin edilməsi, fundamental və tətbiqi tədqiqatlar, innovativ inkişaflar, tədqiqat təşkilatları ilə ölkə iqtisadiyyatının real sektorları arasında əməkdaşlığın yaradılması, modernləşdirmə proseslərinin stimullaşdırılması və inkişafının səmərəli mexanizmlərinin yaradılması, istehsalın texniki və texnoloji yenilənməsi, elmin nəticələrindən istifadə edilməsi nəzərdə tutulur [8, s.81]. Uğurlu müəssisə ən son texnoloji məlumatlara cavab verən yeni yüksək keyfiyyətli məhsul istehsal edən müəssisədir. Müəssisənin istehsalının keyfiyyətinə təsir edən əsas amil isə innovativ tərəqqidir. Bu məsələ regional səviyyədə xüsusilə aktualdır. Odur ki, bu məqsədə nail olmaq üçün təkcə şəhər əhalisini deyil, cəmiyyətin daha geniş təbəqələrini də bu prosesə cəlb etmək lazımdır. Bu isə o zaman əldə edilə bilər ki, islahatlar bütövlükdə ölkənin ehtiyaclarına yönəlsin və o, hiss olunsun. Həmişə innovativ tərəqqi ilə paralel həyata keçirilməli olan elmin faydaları çox geniş biliyi əhatə edir. Elmi və sənaye sahələri innovasiyadan fərqlənir. İnnovasiya sferasının özünəməxsus marketinq strategiyası var. Bu strategiyaya spesifik maliyyələşdirmə, kreditləşmə və hüquqi tənzimləmə üsulları, ən əsası isə innovativ inkişafın motivasiyası metodu daxildir. Azərbaycanın regional iqtisadiyyatı çoxdan möhkəmlənib və indi aydın şəkildə məlumdur ki, ölkənin hansı regionu hansı kənd təsərrüfatı məhsulunun yetişdirilməsi üzrə ixtisaslaşıb. Müəssisələrin texnoloji göstəricilərə görə imkanları müəyyən edilib, satış bazarları araşdırılıb. Azərbaycan elmi ideyaların təkcə paytaxta deyil, regionlara da axını məsələsinə çox diqqətlə yanaşır. Bu problemləri həll etmək üçün yeni idarəetmə strukturları yaradılır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Ölkəmizdə aparılan bir çox iqtisadi islahatlar artıq uğurla başa çatdırılmışdır. Azərbaycan iqtisadiyyatında bir sıra makroiqtisadi səviyyələrdə sabit və davamlı inkişaf templərinə nail olunmuş, ölkədə keçid iqtisadiyyatı prosesi başa çatdırılmışdır. Belə olan halda iqtisadi inkişaf prosesləri fundamental elm sahələrinin sürətli inkişafını, innovasiyaların və yüksək keyfiyyətli texnologiyaların iqtisadiyyatın aparıcı sahələrinə tətbiqini şərtləndirir. Odur ki, Azərbaycanın iqtisadi inkişaf proseslərində innovasiyaların yayılması və tətbiqini qiymətləndirmək lazımdır [9, s.169]. İnnovativ fəaliyyəti təşviq etmək və genişləndirməklə ölkədə bilik iqtisadiyyatı üçün əlverişli şərait yaratmaq mümkündür ki, bu da qeyri-neft sektorunun inkişafı baxımından əhəmiyyətlidir. Ölkənin bütün imkanlarından, mövcud resurslarından tam və ən səmərəli istifadə edilməsi qarşıya qoyulan məqsədlərə nail olunmasında mühüm şərtlərdir. Bu baxımdan yanacaq-enerji, nəqliyyat-logistika infrastrukturunun inkişafı, regionların inkişafına daim diqqət yetirilməsi, regional inkişaf mərkəzlərinin inkişafı mühüm istiqamətlərdir. Qeyri-neft sektorunun inkişafının əsas prioritetlərdən biri kimi İKT-dən, rabitə xidmətlərindən istifadənin genişləndirilməsinə və İKT-nin inkişafına yönəlmiş etibarlı mühafizə sisteminin və bu sahədə milli standartların formalaşdırılması diqqət mərkəzindədir [10, s.48]. Son illər Azərbaycanda sürətlə inkişaf edən sahələrdən biri məhz rabitə və informasiya texnologiyaları sahəsidir. Məlumdur ki, XXI əsrdə informasiya cəmiyyətinə keçid prosesləri sürətlənmişdir. Belə şəraitdə Azərbaycanda elektron hökumətin və intellektual potensialın inkişaf etdirilməsi sosial-iqtisadi inkişafın artırılmasının mühüm vəzifələrindən biri olmuşdur. Rabitənin, informasiya texnologiyalarının inkişafı ilə ölkənin hərtərəfli çiçəklənməsinə nail olunması ümumi inkişafın prioritet istiqamətlərindən biridir. Onun səmərəli istifadəsi nəticəsində mövcud potensialın artırılması, rabitənin, informasiya texnologiyalarının təşkilati-hüquqi, texniki və kadr baxımından müasirləşdirilməsi, İKT sektoruna investisiyaların cəlb edilməsi, habelə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi mümkündür. Bu sənayeni inkişaf etirmək üçün qarşıya bir sıra məqsəd və vəzifələr qoyulmalıdır. Həmin məqsəd və vəzifələrə aşağıdakıları aid edə bilərik:

- inkişaf etmiş İKT sektorunun təkmilləşdirilməsi, vahid milli məkanın formalaşdırılması;
- rasional, şəffaf və elektron idarəetmənin təmin edilməsi üçün elektron hökumətin fəaliyyətinin səmərəli təşkili;
- nəzarət olunan dövlət idarəçiliyi və yerli özünüidarəetmənin təkmilləşdirilməsi;
- təhsildə dünya informasiya ehtiyatlarından səmərəli istifadənin təşkili;
- interaktiv təhsil imkanlarından istifadənin genişləndirilməsi;
- regionlarda universal rabitə xidmətlərinin (telekommunikasiya, informasiya texnologiyaları və poçt) göstərilməsi.

Qeyri-neft sektorunun inkişafı ətraf mühitin çirklənməsi, təbii ehtiyatların səmərəli istifadəsi ilə bağlı problemlərin həllinə yönəlmiş tədbirlərin həyata keçirilməsinin əhəmiyyətini artırır. Bütün bunlar gələcək dövrdə aşağıdakı istiqamətlərdə işlərin aparılmasını zəruri edir:

- Kür, Araz və digər çayların hidroloji monitorinqinin təkmilləşdirilməsi;
- Yaşıllaşdırma işlərinin genişləndirilməsi, şəhər, rayon, qəsəbə, küçə və prospektlərinin abadlaşdırılması;
- İnfrastruktur layihələrinin həyata keçirilməsində və ölkə əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılması;
- Yerli təbii və əmək ehtiyatlarından səmərəli istifadəsində bələdiyyələrinin iştirak etməsi [11, s.1865].



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

**Nəticə**

Beləliklə, son məhsul istehsalında qeyri-neft sektorunun inkişafı üçün texnoloji zəncir yaradılması, hazır məhsulların rəqabətqabiliyyətliliyinin artırılması, bu sahədə ixracın həcminin və çeşidini genişləndirilməsi lazımdır. Eyni zamanda, qeyri-neft sənayesini inkişaf etdirmək üçün ölkənin təbii və iqtisadi ehtiyatlarını dövriyyəyə cəlb etmək və onlardan istifadənin səmərəliliyini artırmaq lazımdır. Bu məqsədlə Strateji yol xəritələri çərçivəsində qeyri-neft sənayesi sahələrinə doğru şaxələndirilməsi, səmərəliliyinin və rəqabətqabiliyyətliliyinin artırılması və s. tədbirlər müəyyən edilmişdir. İstehsal sahəsi arasında ağır sənaye və maşınqayırma sahəsinə xüsusi diqqət yetirilir. Çünki, qeyri-neft sənayesi sahələrini əhatə edən texnoparkların və sənaye zonalarının yaradılması Azərbaycan üçün daha səmərəlidir. Bu sahələrin inkişafı digər sahələrin inkişafı üçün əsasdır. Bu səbəbdən sənayeləri sürətləndirəcək böyük layihələr texnoparklar və sənaye zonaları ilə əlaqələndirilməlidir. Azərbaycanın İpək yolunun "iqtisadi zolağında" yerləşdiyini nəzərə alsaq, bu xətt boyu sənaye zonalarının və texnoparkların yaradılması məqsədəuyğundur. Texnoparkların səmərəliliyini artırmaq üçün ölkədə Texnoparklar Assosiasiyasının inkişaf etdirilməsi lazımdır. Texnoparklar Assosiasiyasının işi Sahibkarlığın İnkişaf Fondunun işi ilə birbaşa əlaqələndirilməlidir. Azərbaycanın rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalına xarici sahibkarların cəlb edilməsi ixrac-idxal potensialından məqsədəuyğun istifadə sahəsində əsas vəzifələrdən biridir. Bununla bağlı Azərbaycan hökuməti artıq öz strategiyasını formalaşdırıb. Azərbaycanda İnvestisiya Şirkəti və İxracın və İnvestisiyaların Təşviqi Fondu yaradılmış ki, bunların qeyri-neft sektorunda ixracın stimullaşdırılmasında rolu artıb. Bu strukturlar qeyri-neft sektorunun və ümumilikdə sahibkarlığın inkişafında fəal iştirak edir. Yaxın perspektivdə qeyri-neft sektorunun inkişaf problemlərinin həlli üçün bir sıra məsələlərə kompleks yanaşma təmin olunmalıdır:

- Xarici investisiyalar müasir texnologiyaların idxalı, Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması vasitəsi kimi qəbul edilir. İndiki mərhələdə, sərmayələrin artması tendensiyaları ilə dövlət, ilk növbədə, onların hara yönəldilməli olduğu ilə bağlı aydın perspektivləri müəyyən etməlidir. Fikrimizcə, Azərbaycanın xarici şirkətlər üçün qeyri-neft sektorunda prioritetləri aşağıdakılardır: kimya sənayesi; metallurgiya sənayesi; yüngül və yeyinti sənayesinin sahələri; kənd təsərrüfatı; tikinti sənayesi; əczaçılıq sənayesi;
- İnformasiya texnologiyaları, turizm, telekommunikasiya, təhsil və ekoloji layihələr sahəsində də xarici investorlarla əməkdaşlıq üçün real potensiallar vardır;
- Xarici investisiyaların Azərbaycan iqtisadiyyatına sabit axını üçün xarici investorların ölkəyə inamını dirçəltmək, onun dünya maliyyə bazarlarında imicini gücləndirmək, qeyri-neft sektorunda investorların stimullaşdırılması sistemini inkişaf etdirmək və investisiya əməkdaşlığı üçün beynəlxalq standartları qəbul etmək lazımdır;
- Fikrimizcə, qeyri-neft sektoruna investisiya axını daha çox daxili və xarici resursları səfərbər etmək üçün maliyyə bazarının, lizinq bazarının inkişafından, bank sisteminin və qiymətli kağızlar bazarının sabitliyindən asılı olacaqdır;
- Ümumilikdə isə qeyri-neft sektorunun inkişaf problemlərinin müasir dövrün çağırışlarına uyğun şəkildə həll olunması mexanizmləri işlənməli və daha fəal şəkildə tətbiq olunmalıdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**


1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi". Bakı, 6 dekabr 2016.
2. Beynəlxalq reytinq mərkəzləri Azərbaycanda iqtisadi islahatların nəticələrini yüksək qiymətləndirir. 14.03.2022. https://xalqqazeti.com/mobile/az/news/72577.
3. Эюбов В.С.,Тагиев А.М. Особенности развития не нефтяного сектора Азербайджана: возможности, перспективы и приоритеты // Экономика и бизнес: теория и практика. – 2019. – № 4-1. – С. 227-232.
4. Məmmədov H. Davamlı iqtisadi inkişafın nəzəri əsasları. Statistika xəbərləri, 2019, № 3/2019, İl 5, Cild 3, İyul-sentyabr, s. 64-73.
5. Azərbaycanın statistik göstəriciləri. statistik məcmuə. Bakı, 2021, 752 s.
6. Гусейнов Ш.Р. Конкурентоспособность туристического сектора Азербайджана // Вестник НГУЭУ. – 2015. – № 2. – С. 355-360.
7. Əliyev Ş.T. Azərbaycanda qeyri-neft sənayesinin şaxələndirilməsi və ixrac potensialının artırılması istiqamətləri. Audit, № 4, cild 26, 2019, s.61-73.
8. Сафиева З.Р. Влияние инновационных нововведений на ненефтяной сектор страны (Азербайджан) / З. Р. Сафиева // Вестник экспертного совета. – 2017. – № 1(8). – С. 81-84.
9. Əliyev Ş.T. Xüsusi iqtisadi zonalar: konseptual əsaslar və strateji istiqamətlər. Bakı: Elm və təhsil, s.196.
10. Ибрагимова С. Развитие ненефтяного сектора независимого Азербайджана / С. Ибрагимова // The Caucasus. Economic and Social Analysis Journal of Southern Caucasus. – 2017. – Т. 3. – № 18. – С. 46-49.
11. Губадова А.А. Влияние развития ненефтяного сектора на экономику Азербайджана // Российское предпринимательство. — 2017. — Том 18. — № 12. — С.1861-1866.




***Нигяр Роман кызы Гаджиева***

***Теоретико-методологические исследования проблем развития ненефтяного сектора в Азербайджане***

***Резюме***

*Цель исследования – является рассмотрение и определение теоретико-методологических основ развития ненефтяного сектора Азербайджана в современных условиях. Раскрыты теоретико-методологические особенности развития ненефтяного сектора Азербайджана в нынешнем периоде. Обоснована важность развития перспективных сфер ненефтяного сектора с учётом глобальных вызовов. Анализированы пути решения проблем, замедляющие развитие ненефтяного сектора. Рассмотрены приоритеты и цели развития ненефтяных сфер экономики и их возможности. Подготовлены рекомендации и даны предложения по развитию ненефтяного сектора в ближайшей перспективе. Методология исследования – состоит из экономических методов – анализа, синтеза, сравнения и обобщения, так же использования методологических подходов ряда учёных – экономистов по проблемам развития ненефтяных сфер экономики страны. Практическая значимость исследования – полученные результаты исследования предоставляют научно-практическую значимость в разработке и реализации комплексных мероприятий в развитии ненефтяного сектора экономики. Результаты исследования – заключается в подготовке механизмов деятельности и практичных предложений в развитии*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*ненефтяного сектора в соответствии новых вызовов. Оригинальность и научная новизна исследования – состоит из определения и формирования новых теоретико-методологических взглядов в развитии ненефтяного сектора в условиях глубокой экономической трансформации и в условиях объективных реалий. Обоснована важность подготовки и реализации эффективных мероприятий в интенсификации развития ненефтяного сектора с учётом новых вызовов. Определены основные направления деятельности и совершенствования действующих механизмов, моделирование развития ненефтяных секторов в контексте ближайшей, средней и долгосрочной перспективы.*

***Ключевые слова:*** *ненефтяной сектор, ненефтяные продукции, экономическая эффективность, новые экономические вызовы, проблемы развития ненефтяного сектора, направления развития ненефтяного сектора.*

***Nigar Roman Hajiyeva***

***Theoretical and methodological study of the development problems of the non-oil sector in Azerbaijan***

***Summary***

*Purpose of the research - is a theoretical and methodological study of the development problems of the non-oil sector in Azerbaijan. Therefore, in the study the development problems of the non-oil sector and their theoretical and methodological features were presented. The importance of developing promising areas of the non-oil sector has been substantiated, taking into account global challenges. Ways to solve the problems that allow the development of the non-oil sector were explored and analyzed. Priorities and goals for the development of non-oil sectors were considered. Recommendations and proposals were made to raise the development of the non-oil sector in Azerbaijan to a new stage in the near perspective. Research methodology – first of all, a number of economic methods were used - scientific abstraction, analysis, synthesis, comparative analysis and generalization. At the same time, the theoretical and methodological approaches of various scientists and researchers on the problems hindering the development of the non-oil sector were considered. The practical importance of a research – The theoretical and methodological provisions given in the article can be used in the development of measures and mechanisms for the development of the non-oil sector. Research results – are to make proposals for the development and implementation of action mechanisms for the development of the non-oil sector in accordance with the new challenges. Originality and scientific novelty of the research –is the formation of modern theoretical and methodological views on the development of the non-oil sector in the context of economic transformations and new objective realities as the main scientific innovation. The article substantiates the need to take effective and efficient measures to intensify and more effectively organize the development of the non-oil sector, taking into account the new challenges. İn the study the areas of activity have been identified, taking into account the short-term, medium and long-term perspectives on more productive modeling of the development of the non-oil sector and the improvement of existing mechanisms.*

***Key words:*** *non-oil sector, non-oil products, economic efficiency, new economic challenges, non-oil sector development problems, non-oil sector development directions*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 10.03.2022.***
***Çapa qəbul olunub: 17.03.2022.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*